Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Rafiq Abbasovun 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "AZADLIQ – 2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Əbil Bəybala Əlibala oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 noyabr 2015-ci il tarixli 187 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri                                                                 23 noyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Rafiq Abbasov 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş "AZADLIQ – 2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Əbil Bəybala Əlibala oğlunun 20 noyabr 2015-ci il tarixli 187 saylı yazılı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "AZADLIQ – 2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Əbil Bəybala Əlibala oğlu 20 noyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının seçki dairəsi üzrə bəzi seçki məntəqələrində qanun pozuntularının olduğunu bildirmiş, 16 noyabr 2015-ci il tarixli 33/98 saylı qərarının, həmin seçki dairəsi üzrə 1, 2, 3, 4, 5, 6, 7, 8, 10, 11, 15, 19, 20, 21, 22, 23, 24, 25, 26, 30 və 31 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini, həmçinin seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, 41 saylı Sumqayıt birinci seçki dairəsi üzrə "Azadlıq – 2015" siyasi partiyalar bloku tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş və qeydə alınmış Ə.H.Abdullayev səsvermə günü həmin seçki dairəsi üzrə bəzi seçki məntəqələrində baş verməsi iddia olunan qanun pozuntuları ilə bağlı 2015-ci il noyabrın 6-da poçt vasitəsilə dairə seçki komissiyasına yazılı müraciət etmişdir. 2015-ci il noyabrın 16-da dairə seçki komissiyasına daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş

müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü əsaslı olaraq müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci hissəsinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Göründüyü kimi, dairə seçki komissiyası 16 noyabr 2015-ci il tarixli, 33/98 saylı qərarları ilə ərizəçinin müraciətini ona geri qaytarmaqla düzgün nəticəyə gəlmişdir. Buna görə də ərizəçi B.Ə.Əbilin müraciəti əsassız olduğundan təmin edilməməli, dairə seçki komissiyasının 16 noyabr 2015-ci il tarixli 33/98 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə “AZADLIQ – 2015” siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Əbil Bəybala Əlibala oğlunun 20 noyabr 2015-ci il tarixli 187 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 16 noyabr 2015-ci il tarixli 33/98 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü — Rafiq Abbasov